# *TƏNQİD VƏ BİBLİOQRAFİYA*

## Gəl bu ömrü bir oxuyaq

**Elşən Qəni,**
*publisist*

Sözüm - sabaha salamdır.

Yazıçı da dəniz kimidir. Lal ləpələr sakit-sakit, için-için pıçıldar, yazıçı da özü ilə həzin-həzin dərdləşər …dəli dalğalar kükrəyib tənha qayığı çalxaladığı kimi fikirlər də yazıçını fırtınalı qoynuna alar, dəli rüzgarın qabağına qatar… Bu gərdişdə onun tək tutacağı, xilaskarı təxəyyülü olar, məlumatı, bildikləri yox, onu gözləyən təxəyyülü. Çünki insanı xilas edən, güclü edən gözəlliklərin ilkin halı kimi onu hər şəraitdə, hər vəziyyətdə cəlb eləyən təxəyyülü… Yazıçı düşünür ...axtarır… Yazıçı ürəyini ağ vərəqə boşaldıb cild-cild kitabda saxlanc edəndə, qabarma - çəkilmə kimi, söz də rahatlanır, …yerini - yatağını tapdığı üçün özünü lal sükuta təslim edib dincəlir…

Əbədiyyətə gedən yol ədəbiyyatdan başlanır — deyən müdriklər heç də yanılmayıblar. Ədəbiyyat söz sənətidir. Söz isə fikrin ifadə formasıdır. İnsan yer üzünün əşrəfidir. Allahın yaratdığı ən ali varlıqdır. İnsan əməli, işi, sözünün bütövlüyü ilə insan olur. Deyirlər, Allah əvvəl söz yaratdı.

Ən birinci yarandı söz!
İlahinin qüdrətilə
Kainatı dolandı söz!
Ay yarandı, Gün yarandı
Sellər-sular dalğalandı
Uca dağlar sıralandı
Əlçim-əlçim darandı söz!

Elə odu ki, Sözü Allahın gözəl adlarından Əsmail – hüsndən biri bildilər ...Dünya kimi insanlar da cilvəlidi; min bir rəngi, min bir sehri var. Bəzən bir anda, bəzən illərdə göstərər, təsdiq edər özünü. Amma hər bir halda bir formuldan, bir düsturdan keçər ömrü: gəldi, gördü, getdi. Elələri də var ki, haqqında danışılanda «Gəldi, yaşadı - yaratdı getdi» deyirlər. Elə yaşadı ki, adını Sözə yazdı… yaxud tarix yaratdı, getdi deyirlər. Həm də adını tarixə yazdı… Belələri özlərini zamanın ixtiyarına verib hər şeyi «Qismətin», «Taleyin» öhdəsinə buraxıb yerlərində saymırlar. Gecələrini gündüzlərinə qatırlar, çalışırlar… aran keçirlər, dağ aşırlar… Həm Allahın yazısı, həm də zəhmətləri hesabına, çalışqanlıqları ilə istədiklərinə nail olurlar. Yazıçı, alim Ağarəhim Rəhimov kimi…

Onun haqqında söz düşəndə çoxları fikirlərini belə ifadə edir: «Ağarəhim əsl söz adamıdır. Zəhməti, ağlının gücü, çalışqanlığı və fitri istedadı ilə istədiyinə nail olmağı bacarandır»… Söz adamı olmaq da hər kəsə nəsib olan səadət deyil. Haqqında bəhs edəcəyimiz söz adamı, sözün işığına üz tutan, sözə pənah aparan, sözə can verən və sözdən cild-cild də mət tutan yazıçı-dramaturq, böyük alim, böyük ziyalı Ağarəhim 1948-ci ildə Ucar rayonunun Boyat kəndində dünyaya gəlib. Dünya ədəbiyyatına, Şərq poeziyasına Fizuli kimi ilahi bir nur bəxş eləyən qədim Bayat eli, bayat tayfası zaman-zaman millətini, vətənini, insanları ilahi eşqlə sevən çox işıqlı fikir, əməl sahibi olan insanlar yetirib. 5 əsrlik bir yoldan kimlər gəlib, kimlər

keçib, nə saymaqla, nə yazmaqla bitən deyil. Amma bu gün belə insanlardan, sözün sehrinə düşüb, söz ömrünü yaşayan bir ziyalıdan söz açırıq.

Elinin, obasının mənəvi pasportuna çevrilə biləcək bir ziyalı. Ağlının və elminin şövqüylə nəinki bir kəndə işıq sala biləcək bir ziyalı, məmləkətin hər yerindən görünə biləcək bir işıq yandırdı Allah.

Yazıçı Ağarəhimi, alim Ağarəhimi, filosof Ağarəhimi yaxından tanımaq üçün ilk növbədə onun «Yaddaşda yaşar xatirələr» əsərini oxumaq lazımdır. Bu əsər yazıçının nəinki yaradıcılığının, qəlbinin, mənəvi dünyasının açarıdır. Bu qapını açıb içəri girə bilən hər kəsin qarşısında gözü ilə od götürən, Dəmirçi kürəsindən bişib, zindanda döyülüb, əzilib, bərkimiş məğrur bir insanın, əsl Azərbaycan kişisinin obrazını görər. Görər və deyər; Bu ömrü yalnız belə bir həyat yolu keçən insan yaşaya bilər! Belələri haqqında bəzən xüsusi missiya üçün dünyaya gələn, bəzən də «seçilmiş insandır» da deyirlər. Allah tərəfindən seçilən, mükafatlandırılan insan… Bəli, düz eşitdiniz; Seçilən… Qəti şübhə etməyin… Dediklərimizə inanmaqçün kifayət edir ki, onun elmi və bədii yaradıcılığına nəzər salasınız. Ömrünü cild–cild elmi, bədii, fəlsəfi kitablara köçürmək, bu qədər məhsuldar işləmək təkcə insan zəkasının məhsulu ola bilməz, həm də tanrı payıdır. Yardıcılıqla yanaşı, pedaqoq kimi ali məktəbdə dərs demək, təhsil qurucusu olmaq, milli-mənəvi dəyərlərə, ən yüksək əxlaqi keyfiyyətlərə söykənən elm, təhsil ocağı yaratmaq hər kəsə nəsib olan xoşbəxtlik deyil.

Deyirlər, Kişinin mədəniyyəti Qadına münasibətilə ölçülür. Dünyanın ən böyük fatehləri, ən müdrik insanları həmişə qadına, anaya yüksək qiymət verib, adını uca tutub, önündə səcdə ediblər, cənnəti Ana qədəmində biliblər. Alim Ağarəhim də respublikada yeganə qadın elm ocağı, təhsil müəssisəsi olan Bakı Qızlar Universitetinin yaradıcısı, qurucusu və cəfakeş fəhləsidir. Bu elm ocağında təkcə elmi-pedaqoji kadrlar deyil, həm də gələcəyin anaları, ailəsinin və elinin namusunu çəkə biləcək, ləyaqəti və isməti ilə qürurlana biləcək xanımlar yetişdirilir. Ağarəhim yaradıcılğının leytmotivindən qaynaqlanan, xarakterindən qidalanan bu xətt, xalq, millət üçün yeni insan konsepsiyası yaratmaq onun yardıcılığından və həyatından qırmızı xətlə keçir.

Bəzən araşdırmaçılar, jurnalistlər, eləcə də oxucular yazıçı Ağarəhimlə alim, professor Ağarəhimi bir-birindən ayırmağa, Bakı Qızlar Universiteti ilə onun bədii yaradıcılığnı fərqli düsturlar kimi təqdim etməyə çalışırlar… Əslinə qalsa, bədii yaradıcılığı da, təhsil quruculuğu da onun elmi yaradıcılığının ardıdır, daxili dünyasının davamıdır. Onun yaratdığı bütün əsərlər insanın mənəvi saflığına, kamilləşməsinə, insan azadlığına, cəmiyyət üçün, sabah üçün yeni nəsil yetişdirilməsinə xidmət edir.

Deyirlər ki, söz adamları yazıları ilə özlərini ifadə edirlər. Yazıçı Ağarəhim istər dram əsərlərində, istər kinossenarilərində, istərsə də roman və povestlərində özünü rahat, dürüst ifadə edə bilən yazardır. Saflıq, ədalətsizliyə qarşı barışmazlıq, rüşvətxorluğa qarşı dözümsüzlük, naqisliklərə qarşı mübarizlik yazıçının həyat kredosudur.

Ağarəhimin bədii yaradıcılığa gec başladığını iddia edənlər də var… Ədəbiyyata «Canavar balası» hekayəsi ilə gələn yazıçı qısa bir zamanda bir-birinin ardınca ədəbi mühitdə diqqət çəkən «Qoşa qanad», «İkili dünyam», «Ovlaq keçidi», «Səfalət», «Girdab», «Cinayət və etiraf», «Təxribat», «Mürdəşirlər adası», «Yaddaşda yaşar xatirələr», «Kabus», «İmtina», «Qasırğa», «Nişan üzüyü» və «Qisas» romanlarını, onlarca povest, yüzlərcə hekayə yazdı, ssenariləri əsasında «Canavar balası», «Qırmızı qar» filmləri çəkildi. «Əsgər anası», «Pul hərisləri», «Məhəbbət və cinayət» pyesləri tamaşaya qoyuldu. Hələ özünün səhnə həyatını tapmayan, ekran taleyini yaşamayan neçə-neçə əsəri ərsəyə gətirdi.

Ədəbi tənqidlə məşğul olanlar və ədəbiyyatı diqqətlə izləyənlər yaxşı başa düşürlər ki,

Ağarəhim əlahəzrət sözü məqamında deyən, yerində işlədən yazıçıdır. Mövzu seçimi, aktuallıq, dil üslubu baxımından yazıçı Ağarəhim bir əlin barmağı ilə sayıla biləcək yazarlardandır. Bu cür insanlar sanki hər hansı bir missiyanı yerinə yetirmək üçün dünyaya gəliblər. 90-cı illərin sonunda ədəbi mühitdə bir boşluq, xaos yaranmışdı. Belə bir zamanda ədəbiyyata gələn yazıçı böyük bir fədakarlıqla ədəbi mühitdə yaranan boşluğu doldurmağa can qoydu desək, qətiyyən səhv etmiş olmarıq. Həm də Ağarəhim elmi-bədii publisistik üslubun gücündən peşəkarcasına istifadə edərək, orijinal bir yazı üslubu ilə yeni ədəbi məktəbin bünövrəsini qoyanlardan oldu.

Ən maraqlısı da odur ki, yazıçının təsvir etdiyi qəhrəmanlarla tanışlıq zamanı dərk edirik ki, biz hər gün həyatımızın bütün sahələrində onlarla rastlaşırıq. Əsərlərini oxuyan hər kəs özünü hadisələrin episentrində hiss edir. Yazıçı bunu elə bədii ustalıqla, peşəkarcasına işləyir ki, oxucu hadisələrin iştirakçısı olduğunu zənn edir, prosesin içində görür özünü.

Ağarəhim axına qoşulub gedən yazıçılardan deyil, öz dəst-xətti, yazı manerası, özünəməxsus üslubu olan yazarlardandır. Yaratdığı obrazları mənfiyə müsbətə bölməyən, əsl insan obrazı yaradan yazıçıdır. Heç bir qəhrəmanını da bütləşdirməyə cəhd etmir. Fərqli cəhətlərdən biri də budur ki, Ağarəhimin obrazlarının adları onların xarakterini çox asanlıqla müəyyən etməyə imkan yaradır, obrazın daxili dünyası barədə oxucuya məlumat verir, kimliyini müəyyənləşdirməkdə təəssürat yaradır. Eyni zamanda yazıçı obrazın xarakterinə uyğun olaraq onun cizgilərini böyük ustalıqla təsvir edir.

Ağarəhimin bədii dünyasına səyahət edən oxucu yanında namuslu, el qeyrəti çəkən, Azərbaycan qadınının ismətini, şərəfini qoruyan əsl Azərbaycan kişisi ilə yoldaşlıq etdiyinin şahidi olur. Ağarəhim bir yazıçı kimi milli mentalitetə, mənəvi dəyərlərə hörmətsizlik edənlərə, arını, namusunu itirənlərə qarşı həddindən artıq amansızdır. Milli mənəvi dəyərlərini itirmiş obrazların hamısının heç uf demədən həyatına son qoyur. Eyni zamanda saflığı, ləyaqəti ilə seçilən Azərbaycan qızlarını mələk kimi Allahın dərgahına qədər yüksəldə bilir. Yazıçının «Qırmızı qar» filmndə hadisələrin real və canlı təsviri, o anların faciəsi ilə yanaşı, bizə azərbaycanlı olmaq qürurunu yaşadır. Ağarəhim yaradıcılığında rast gəldiyimiz qadın obrazlarını iki qismə bölmək olar; mələk və şeytan xislətli qadınlar.

Ağarəhim böyük fəzilət sahibidir. Allah aşiqidir. Onun yaradıcılığı ilə tanışlıq zamanı biz bunu asanlıqla duyur, hətta görürük desək daha doğru olar… Yazıçı böyük məharətlə oxucusunu maddi dünyadan ayırıb mənəvi dünyaya, ruhlar aləminə səyahətə apara bilir. Elm-ürfan, fəzilət sahibi olan yazıçı mücərrəd dünyanı olduqca inandırıcı, özünəməxsus orijinallıqla elə təsvir edir, məhşər ayağına çəkilənlərin faciəsini elə ustalıqla təsvir edir ki, insanda haqq divanının qurulacağına qətiyyən şübhə qalmır. Ən maraqlı tərəfi də budur ki, bütün bunları oxuduqca yazının pedaqoq, sözün həqiqi mənasında filosof qələmindən çıxdığını oxucu dərhal hiss edir. Yetkin insan yetişdirmək, insanları doğru-dürüst yola dəvət etmək Ağarəhimin yaşam prinsipidir….

İrfan fəlsəfəsinə görə, insan yarandığı gündən özünü axtarır. Özünü axtara-axtara Allahını tapır… Bu mənəvi tapıntı yazıçıya görə bəşər övladının qəlbini işıqlandırmaqda əvəzsiz nur mənbəyidir. Ağarəhimin düşüncəsinə görə, insanın inkişafı maddiyyatla, hardansa nəyi isə çırpışdırmaqla, "tək mən salim olum" düşüncəsi ilə təmin olunmur. İnkişafın, zənginləşmənin, kamilliyin yeganə yolu insanın özünüdərkinin, ağıl və zəkasının üzərindən keçir. İnsan yaşayır, yaradır, xoşbəxtliyini əldə edir. Yalnız belə olduğu halda bəşər övladı sağlam düşüncəyə yiyələnir. Kimsəylə özünə fərq qoymur. «İnsan insandır» düsturunun qayda-qanunlarını özünə, əməlinə tətbiq edir. Yazıçı, filosof «Qüdrətdən doğan nur» fəlsəfi essesində «insanın inkişaf konsepsiyası» dürüst həllini «Allah» və «İnsan» şəbəkəsində tapır.

Əxlaq və mənəviyyat, tərbiyə anlamı hələ vaxtı ilə böyük mütəfəkkirlərdən Sokratın, Platonun, Demokritin, Dantenin əsərlərinin ən işıqlı ideyalarından sayılırdı. Allahsız nə əxlaq, nə mənəviyyat var deyən şəxsiyyətlərdən Əl-Fərabi «Allah insanın daxilindəki nurdur», Volter «Allah mənim vicdanımdır», Hüqo «Allah mənim vicdanımın səsidir», Russo «Allah yoxdursa, onu yaratmaq lazımdır», Komenski "Allahsız insan quru ağacdır», Tolstoy «Harda məhəbbət varsa, orda Allah vardır», Əli Şəriəti «Allah mənim aşiqimdir» kimi dəyərli fikirlər səsləndiriblər. Allahı sevənlərin fəlsəfəsinə hörmətlə yanaşan yazıçı-dramaturq «Allah mənim cövhərim, mənsə onun zərrəsiyəm" qənaətinə gəlir. Ümumun ideyasına şərik çıxan Ağarəhimin aləmində insaniyyət qəhətə çıxan yerdə Allah olmur. Allah olmayan yerdə nə insaniyyət?

Professor, filosof Ağarəhim özünün həyat prinsiplərini, yaşam fəlsəfəsini «Qüdrətdən doğan nur» əsərində böyük məharətlə qələmə almışdır. Yazıçı əsərin «Allahla ünsiyyət» bölməsində Ulu Tanrı, onun potensiyası, transendental ruhu, mövcudatın əşrəfi olan insanın əbədi ruhlar aləmi, insanın etiqadı, könül mülkü, müqəddəsliyi, səadəti ilə əlaqədar mülahizə və mühakimələrini, əqidəsinin dönməzliyini açıqlayır. Yaradanın dünyanı ziyalandıran nurunda insanı özünüdərkə, əxlaqını saflaşdırmağa, müdrikləşməyə çağırışlar edir. Zəki əqidə sahibinin ideya və mülahizələrini həqiqi gerçəkliyin əqli məhsulu zəminində dönə-dönə saf-çürük eləyən Ağarəhim məntiqi mühakimələr irəli sürür və inandırmağa çalışır ki, insanın başlıca vəzifəsi nurlu, işıqlı əməlləri ilə özünün və başqalarının həyatını zinətləndirməkdir. «İnsan insan üçündür" düsturunu necə olur-olsun özünün daxili prinsipinə çevirməkdir. Qəbahətlərini islah etməklə başqalarına cəfa gətirəcək hisslərini idrakı ilə cilovlamaqdır. Məhz bu prinsiplərə uyğun həyat tərzi yaşayan yazıçı-pedaqoq onunla tərəf-müqabil olanlara, tələbələrinə, işlədiyi kollektiv üzvlərinə, onu anlayanlara bu cür həyatın zövqverici olduğunu, isbatsız olduğunu, şərəfli olduğunu həmişə, hər zaman izah etməyə, belə yaşama sahib olmağın vacib olduğunu aşılamağa çalışır.

Yazıçının yaradıcılığının çoxşaxəli olduğunu qeyd etmişdik, 50-dən artıq elmi–pedaqoji dərslik, monoqrafiya və kitabçanın müəllifi olan yazıçı həm də dövri mətbuatla yaxından əməkdaşıq edərək 300-dən artıq məqalə çap etdirib. İbtidai siniflər üçün fənn proqramları, rusdilli məktəbəqədər uşaq müəssisələri üçün Azərbaycan dili proqramı, ali pedaqoji universitetlərin ibtidai təhsil üzrə proqramlar hazırlayıb. 12 povest, 14 poman, 25 pyes, 12 kinossenari və serial ssenarisinin müəllifidir. Esselerdən ibarət 4 kitabı, 21 portret oçerki işıq üzü görüb. Ümumilikdə 20 cilddən ibarət bədii əsərləri çap olunub. Eyni zamanda Ağarəhim ədəbi tənqidin, araşdırmaçıların diqqətini daha çox çəkən yazarlardandır. Bu günə kimi haqqında 20 monoqrafiya yazılıb, üç kitabı rus dilində, 8 kitabı isə ingilis dilində çap edilib..

Ağarəhim təmənnasız insandır. Gördüyü işlərin müqabilində hər hansı bir təmənna ummur, kimsədən "sağ ol" mükafatı gözləmir. «Gördüyüm işdən, atdığım hər hansı bir addımdan millətimə və dövlətimə zərrə qədər xeyir dəyərsə, bir insana yaxşılıq etmiş olaramsa o gün evimdə rahat yatır, özümü xoşbəxt hesab edirəm», -deyir.

"İnsanlarda ən çox görmək istədiyim şey doğruluq, dürüstlük və səmimiyyət, ən böyük dəyər verdiyim ləyaqət və elmdir. Elmindən ləyaqətlə istifadə etməyi bacaranları ən yaxşı insan hesab edir, yazıçı. Bakı Qızlar Universitetindən söz düşəndə universitetin məzunlarının uğurundan iftixarla danışır, indiyə kimi 25 minə yaxın tələbənin təhsil aldığı elm ocağı cəmiyyət üçün çox yararlı insanlar yetişdirib. Məzunlardan elmin zirvəsinə doğru inamla irəliləyən, müxtəlif elmi ixtisaslar üzrə fəlsəfə doktoru olanlar da var, elmlər doktoru adına sahiblənənlər də. Ən fərəhlisi budur ki, məzunlarımız bu gün də doğma məktəblərini özlərinin ikinci evləri bilirlər" — deyir.

Elmi yaradıcılığa gəncliyindən, bədii yaradıcılığa yaşın kamillik dövründə başlayan yazıçı bu gün ömrünün ən müdrik çağlarını yaşayır. Ləyaqətin və müdrikliyin zirvəsinə doğru inamla irəliləyir. Ürəyində hələ deyiləsi sözü çoxdur. Bu sözlər hələ zaman–zaman ağ vərəqlər üzərinə tökülüb kəlam olacaq, illərə, əsrlərə salam aparacaq. Ağarəhim sözə zinət verən, sözü qiymətə mindirən, böyük ozan Yunis İmrənin təbirincə desək, sözü ilə, əməli ilə «Biz gedərik, qalanlara salam olsun» deməyi bacaran kişilərdəndir.